Azərbaycan.- 2021.- 30 mart. S. 9.

# ARDNF-nin fəaliyyətinin başlıca prinsipi - şəffaflıq

## Bunu beynəlxalq qurumlar yüksək dəyərləndirir

Beynəlxalq İqtisadiyyat üzrə ABŞ-ın nüfuzlu Peterson İnstitutu (PIIE) tərəfindən tərtib edilən və cari ilin fevral ayında nəşr olunan 2019-cu ilin yekunlarına aid Suveren Fondların Şəffaflıq və Hesabatlılıq cədvəlində Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) 5-ci yerdə qərarlaşıb. ARDNF bu yerə 64 suveren fond arasında 92 xal toplayaraq layiq görülüb.



PIIE suveren fondların şəffaflıq və hesabatlılıq istiqamətində fəaliyyətinin dəyərləndirməsini həyata keçirən qurumdur. Bu institut 1981-ci ildə təsis edilib, özəl və qeyri-kommersiya təşkilatı olaraq beynəlxalq iqtisadiyyatın araşdırılması sahəsində ixtisaslaşıb. ARDNF-nin belə nüfuzlu bir qurum tərəfindən yüksək reytinqə layiq görülməsi Azərbaycanın neft-qaz strategiyasına, ümumən ölkəmizin nailiyyətlərinə verilən böyük dəyərdir.

Xatırladaq ki, ARDNF 1999-cu il dekabrın 29-da Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılıb. Azərbaycanın neft və qaz gəlirlərinin indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünün təmin edilməsi məqsədini daşıyan fond fəaliyyətə başladığı vaxtdan ölkənin sosial-iqtisadi həyatında önəmli rol oynayır. ARDNF-nin fəaliyyəti xeyirxah və uzaqgörən siyasət əsasında qurulub. Qurumun qarşısında çox mühüm vəzifələr dayanır ki, onlardan da ölkədə makroiqtisadi sabitliyin qorunması, neft gəlirlərindən asılılığın azaldılması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi və digər məsələlər əhəmiyyətli yer tutur. Fondun fəaliyyəti eləcə də ölkənin sosial-iqtisadi tərəqqisi naminə nəhəng ümummilli layihələrin maliyyələşdirilməsinə yönəldilib.

Neft ehtiyatlarının bərpa olunmadığı, yəni hasil edildikcə tükəndiyi hamıya yaxşı məlumdur. Bu səbəbdən neft fondunun ən başlıca vəzifələrindən biri gəlirlərin nəsillər arasında bərabər bölüşdürülməsi, gələcək üçün ehtiyat vəsaitlərin toplanmasıdır.

Bir sıra ölkələrdə də analoji fondlar fəaliyyət göstərir. ARDNF yaradılarkən həmin fondların təcrübəsinə müraciət olunmaqla yanaşı, hazırda həlli vacib olan problemləri nəzərə alan bir model seçilib. Hələ 2017-ci il mayın 31-də 24-cü Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışındakı nitqində Prezident İlham Əliyev demişdir: “Dövlət Neft Fondunun xətti ilə ölkəmiz üçün ən önəmli layihələrin icrası nəzərdə tutulur. Onlardan birincisi məcburi köçkünlərin problemlərinin həllidir. Son illər ərzində məhz Neft Fondunun vəsaiti hesabına məcburi köçkünlər üçün 100-ə yaxın qəsəbə salınıbdır. Bu vəsait əlbəttə, neft əməliyyatlarının gəlirlərindən formalaşır və bu gün biz özümüzü dünyada müasir, dinamik inkişaf edən ölkə kimi təsdiq edə bilmişik”.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri layihəsində Azərbaycanın iştirak payını da neft fondu maliyyələşdirdi. Yəni ARDNF-nin maliyyələşdirdiyi hər layihə sıradan bir layihə deyil. Onlar iqtisadiyyatın şaxələndirilməsinə, növbəti layihələrin gerçəkləşməsinə, sosial infrastrukturun genişlənməsinə, bir sözlə, ölkənin davamlı inkişafına xidmət edir. Məsələn, BTC-nin çəkilməsi ilə Azərbaycan obrazlı desək, beynəlxalq enerji aləminə bir qapı açdı. Sonra bu qapıdan daxil olaraq digər önəmli layihələr həyata keçirdi. “Cənub qaz dəhlizi” kimi nəhəng bir layihənin reallaşmasının təşəbbüsçüsü və lideri kimi çıxış etdi.

Azərbaycan neftdən və qazdan gələn gəlirləri eyni zamanda ordunun gücləndirilməsinə, nəqliyyat sektoruna yönəltdi. Neft fondundan vəsait ayıraraq Oğuz-Qəbələ-Bakı kəmərini çəkib paytaxta bulaq suyu gətirdi. Samur-Abşeron kanalının rekonstruksiyası nəticəsində tarlalara, əkin sahələrinə bərəkət bəxş etdi, digər çoxsaylı sosial və infrastruktur layihələrini həyata keçirdi.

Neft fondunun vəsaiti xaricdə təhsil alan neçə-neçə azərbaycanlı gəncə dəstək verdi. Bu proses yenə də davam edir. Bir sözlə, Azərbaycan dövləti neft kapitalını insan kapitalına çevirdi.

Bütün bunlarla yanaşı, ARDNF vəsaitlərin idarə edilməsi, idarəçilik, institusional quruculuq, hesabatlılıq və şəffaflıq kimi istiqamətlərdə beynəlxalq səviyyədə örnək qurum kimi tanındı. Təsadüfi deyil ki, qurum indiyədək bir sıra ali mükafatlara layiq görülüb.

2019-cu il üzrə sözügedən qiymətləndirmə cədvəli qlobal suveren fondların vəsaitlərinin idarə edilməsi, idarəçilik, dayanıqlılıq, şəffaflıq və hesabatlılıq, eləcə də Santyaqo Prinsiplərinin tətbiqi kimi müxtəlif istiqamətlərin dəyərləndirilməsi əsasında formalaşmışdır. ARDNF 2019-cu il üçün qiymətləndirmədə hər bir kateqoriya üzrə demək olar ki, maksimuma yaxın bal toplayıb.

Qeyd edək ki, Beynəlxalq İqtisadiyyat üzrə Peterson İnstitutu, eyni zamanda suveren fondlar üçün vahid beynəlxalq standartlar toplusu olan Santyaqo Prinsiplərinin tətbiqi ilə bağlı qiymətləndirmə cədvəli tərtib edib. Bu cədvəl 24 Santyaqo Prinsipindən suveren fondların qiymətləndirmə cədvəlinə uyğun gələn 16 prinsipin tətbiqi və eləcə də onların elementlərin dəyərləndirilməsi əsasında formalaşıb. Azərbaycan Respublikası Dövlət Neft Fondu Santyaqo Prinsiplərinin tətbiqi üzrə qiymətləndirmə cədvəlində də 5-ci mövqedə qərarlaşıb.

***Flora SADIQLI,***
***“Azərbaycan”***